Təsdiq edirəm

ADMİU-nun rektoru

_________Professor Ceyran Mahmudova

“12” “sentyabr” 2025-ci il

# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7003018 – Vokal sənəti ixtisasının**
**Xanəndə sənəti ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003018 – Vokal sənəti ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;

- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- müxtəlif dövrlərə və üslublara aid musiqi əsərlərini texniki və bədii cəhətdən yüksək səviyyədə ifa etmək;
- əsaslandırılmış ifa nümayiş etdirməyi bacarmaq;
- vokal sənəti üçün klassik dövrdən müasir dövrə qədər olan geniş repertuarı dərindən bilmək;
- musiqi üslublarını ifa etmək və eləcə də təhlil, müqayisə etmək qabiliyyətinə malik olmaq;
- Azərbaycan və dünya musiqi mədəniyyətinə dair geniş nəzəri biliklərə malik olmaq;
- ifaçılıqda yaradıcılıq və improvizasiyanı bacarmaq;
- konsert proqramlarını və yaradıcılıq layihələrini hazırlamaq, təşkil və icra etmək;
- KİV-lərdə vokal yönümlü proqramları tərtib və təqdim etməyi bacarmaq;
- ifaçılıq və nəzəri təcrübəyə əsaslanaraq ixtisas yönümlü repertuarın hazırlanmaq və proqramı fərdi tərtib etmək.

***Qeyd:*** *ixtisasın xüsusiyyətindən asılı olaraq ümumi səriştələrə əlavələr edilə bilər.*

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***Xanəndə sənəti ixtisaslaşması üzrə:***
- xanəndəlik sənətinin tarixi, nəzəriyyəsi və metodikası üzrə nəzəri biliklərə yiyələnmək;
- ifaçılığın əsas prinsiplərini bilmək;
- Azərbaycan və dünya musiqi mədəniyyətinə, o cümlədən muğam ifaçılığına dair geniş nəzəri biliklərə malik olmaq;
- xanəndəlik sənətinin müasir problemləri ilə bağlı geniş miqyaslı təhlillər, elmi-nəzəri araşdırmalar aparmağı bacarmaq;
- vokal texnikasını emosional ifadə vasitəsi kimi tətbiq etməyi bacarmaq;
- solo və orkestrlə müxtəlif dövrlərə və üslublara aid musiqi əsərlərini texniki və bədii cəhətdən yüksək səviyyədə ifa etməyi bacarmaq;
- musiqi nəzəriyyəsi üzrə biliklərə malik olmaq;
- musiqi əsərlərinin təhlili və interpretasiyasını bacarmaq;
- xanəndəlik üzrə əldə etdiyi vərdişləri muğam operalarının təfsir və təbliğində istifadə etməyi bacarmaq.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| o Xanəndə sənəti | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | |
| 3 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>*Ali təhsil pedaqoji əsaslarını, müasir təlim və tərbiyə prinsiplərini, ali məktəb müəlliminin peşə fəaliyyətini və pedaqoji ustalığını mənimsətmək məqsədini daşıyır.* | 6 |
| 4 | ***İxtisas (muğam ifaçılığı) 1***<br>*Fənn çərçivəsində muğam sənətinin ifaçılıq aspektlərini dərin elmi və praktik səviyyədə öyrətmək, onların professional səhnə fəaliyyəti və elmi-tədqiqat bacarıqları inkişaf etdirilir. Muğam ifaçılığının tarixi və nəzəri əsasları, şifahi ənənəyə əsaslanan ifa üslubları, muğamların struktur və məqam xüsusiyyətləri - intonasiya və texniki ifa bacarıqlarının təkmilləşdirilməsi, muğamların müasir səhnə təqdimatı və interpretasiyası, təhlil və müqayisəli ifaçılıq yanaşmaları haqqında bilgilər verilir. Muğamların dərin elmi və ifaçılıq analizini aparmaq bacarığı, fərdi ifa üslubu formalaşdırılır. Peşəkar səviyyədə solo ifa, ansambl çıxışları və layihələrdə iştirak edə bilmək səriştələri əldə edilir.* | 12 |

| | | |
|---|---|---|
| 5 | ***İxtisas (muğam ifaçılığı) 2***<br>*Bu fənn magistratura səviyyəsində muğam ifaçılığı üzrə peşəkar icraçılıq bacarıqlarının inkişaf etdirilməsinə yönəlmişdir. Fənn çərçivəsində magistrantlar muğam dəstgahlarının struktur xüsusiyyətlərini, improvizasiya prinsiplərini və muğam ifaçılığının üslub xüsusiyyətlərini daha dərindən mənimsəyirlər. Tədris prosesində klassik muğam repertuarının ifası, müxtəlif muğam şöbələrinin interpretasiyası və səhnə mədəniyyəti üzrə praktiki məşğələlər həyata keçirilir. Fənn, həmçinin, tələbələrin fərdi yaradıcılıq potensialının inkişafına, ifa texnikasının təkmilləşdirilməsinə və musiqi-estetik təfəkkürünün formalaşmasına xidmət edir. Nəticədə, tələbələr muğam sənətinin ənənəvi ifa prinsiplərini qorumaqla yanaşı, müasir konsert və səhnə mühitində peşəkar fəaliyyət göstərmək bacarığı əldə edirlər.* | |
| 6 | ***Vokal sənətinin müasir istiqamətləri***<br>*Ənənəyə bağlı qalaraq, həm də dövrün tələblərinə uyğun şəkildə inkişaf edən ifaçılıq sahəsidir. Klassik muğamın səhnə üslubuna uyğunlaşdırılır. Beynəlxalq festivallarda muğamın təqdimatı, fərqli mədəniyyətlərlə qarşılıqlı təsiri, muğam təhsili və elmi-tədqiqat yönümlü ifaçılıq nümayiş etdirilir. Klassik xanəndəlik üslubunda fərdi vokal texnikalarını yaradır.* | 6 |
| 7 | **Yaradıcılıq işi**<br>*Fənnin məqsədi magistrantın ixtisas sahəsində fərdi yaradıcılıq qabiliyyətini inkişaf etdirmək, onun sənət baxışını formalaşdırmaq və seçilmiş mövzu üzrə müstəqil, orijinal praktiki layihə (ifa, bəstə, səhnə çıxışı və s.) hazırlamasını təmin etməkdir. Yaradıcılıq anlayışı və onun sənətdə tətbiqi, mövzu seçimi və yaradıcılıq ideyası üzərində işlənilir. Fərdi yaradıcılıq planının tərtib edilir. İfaçılıq, səhnə fəaliyyəti və ya kompozisiya yönümlü layihə üzərində işləmək qabiliiyəti formalaşır. Pedoqoji və tədqiqat yönümlü yaradıcılıq potensialını inkişaf etdirir. Seçilmiş mövzu üzrə müstəqil praktiki iş təqdim edir. Sənət sahəsində fərdi baxış formalaşdırır. Öz layihəsini elmi və sənətkarlıq baxımından əsaslandıra bilir.* | 6 |
| 8 | ***Qaval ifaçılığının tədrisi metodikası***<br>*Qaval sənətinin pedaqoji yollarla tədris edilməsini öyrədən elmi-metodik fəndir. Bu fənn qavalın texniki ifa xüsusiyyətlərini, ritmik quruluşunu, muğamla uyğunluğunu və düzgün şəkildə öyrədilməsinin metodikasını əhatə edir. Qaval sənətinin pedaqoji əsaslarını mənimsətmək, onların gələcəkdə müəllim kimi tələbələrə bu sənəti düzgün və sistemli şəkildə öyrətmək bacarığını formalaşdırır. Qaval sənətinin tarixi və ifa ənənələrini, qavalın muğam ifaçılığındakı funksiyasını və ritm, zərb, ifa texnikalarının tədrisini öyrədir. Texniki hazırlığının mərhələlərini inkişaf etdirir. Qrup və fərdi dərslərin aparılma metodikası, təlim prosesində* | 6 |

| | | |
|---|---|---|
| | *müşahidə, düzəliş və qiymətləndirmə üsulları qavalın peşəkar səviyyədə tədrisini planlayır və icra edir.* | |
| 9 | ***Muğamın poetik əsasları (muğamda əruz)***<br>*Muğam sənətində istifadə olunan klassik poeziyanın, xüsusilə əruz vəzninin mahiyyətini, strukturunu və muğamla əlaqəsini öyrənən elmi-nəzəri fəndir. Şeirlərin poetik quruluşunu anlamaq, onların muğamla ritmik və emosional uyarlığını dərk etmək bacarığı qazandırır. Ədəbi mətnlərinin, xüsusilə əruz vəzni ilə yazılmış qəzəl və digər janrların poetik xüsusiyyətlərini, muğam ladları ilə əlaqəsini və ifa zamanı düzgün istifadəsini öyrədir. Muğamda poetik mətnin ifadə və vurğu ilə uyğunlaşdırılır.* | 6 |
| 10 | **Ansambl**<br>*Musiqi ifaçılarının birgə musiqi ifası vərdişlərini inkişaf etdirməyə yönəlmiş praktik fəndir. Fənn tələbələrin kollektivdə işləmək, musiqi əsərlərini ansambl tərkibində ifa etmək, musiqiçilər arasında qarşılıqlı dinləmə və uyğunlaşma qabiliyyətlərini formalaşdırır. Ansambl dərslərində müxtəlif tərkibli ansambllarla işləmə bacarığı inkişaf etdirilir, musiqi materiallarının paylaşılması, musiqi fraqmentlərinin harmonik və ritmik uyğunluğu öyrədilir.* | 6 |
| 11 | **Xanəndəlikdə muğam müşayiəti**<br>*Muğam sənətinin ansambl ifaçılığı, instrumental müşayiət və xanəndə ilə ifaçılar arasında əlaqənin praktik əsaslarını öyrədir. Fənn çərçivəsində muğamın müxtəlif şöbələrinin müşayiət qaydaları, ritmik-intonasiya xüsusiyyətləri və ifa zamanı doğaçlama imkanları tədris olunur. Müşayiət zamanı dinamik tənzimləmə, emosional uyğunlaşma və improvizasiya bacarıqlarını formalaşdırır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | |
| 12 | ***a) Səhnə plastikası***<br>*Səhnə plastikasının nə olduğu, onun teatr və ifa sənətindəki rolu və əsas elementləri barədə ilkin bilik verir. Plastik hərəkətlər və bədii pozalar ilə hisslər çatdırılır. Söz və musiqi ilə birlikdə bədii obraz yaradılır. Bədən dili (jest, mimika, duruş) , hərəkət ritmi və dinamika göstərilir. Səhnədə plastikanın funksiyaları: Emosional təzahür, xarakterin dərinləşdirilməsi, tamaşaçının diqqətini yönləndirməsi göstərilir.*<br><br>**b) *Ritmika***<br>*Ritm hissini inkişaf etdirmək, musiqi hərəkətlərini düzgün yerinə yetirmək, bədən dilini musiqi ilə uyğunlaşdırmaq və ritmik struktur anlayışını dərinləşdirmək məqsədi daşıyır. Bu fənn ritmik hərəkətlərin müxtəlif formalarını öyrətməklə yanaşı, musiqi* | 6 |

| | | |
|---|---|---|
| | *əsərlərinin ritmik təhlilini və ifasında ritmik dəqiqliyi artırmağı hədəfləyir. Ritmik hərəkət və musiqi arasındakı əlaqəni mənimsətmək, musiqi əsərlərinin ritmik quruluşunu təhlil etmə bacarığını formalaşdırır.* | |
| 13 | **a) Səhnə hərəkətinin plastik həlli**<br>*Səhnədə bədən dilindən düzgün istifadə bacarığını formalaşdırmağa yönəlmişdir. Bu fənn aktyor və musiqiçi ifaçılığında səhnə plastikasının qanunauyğunluqlarını, bədənin emosional və ritmik ifadə vasitəsi kimi istifadə edilməsini əhatə edir. Ritm, balans, koordinasiya və səhnədə məkan duyumu kimi texnikaları öyrənir, rolların bədən vasitəsilə ifadəsi və hərəkətlə dramaturji inkişafın verilməsi üzərində işləyirlər.*<br><br>**b) Ritmika və ansambl uyğunluğu**<br>*Musiqi ifaçılığı zamanı ritmik dəqiqlik və kollektiv uyumu bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Fənn ritmik hissin inkişafı, ritmik tələffüzün düzgünlüyü, ansamblda ifa zamanı qarşılıqlı dinləmə və uyğunlaşma qabiliyyətinin formalaşdırılmasını əhatə edir. Müxtəlif ritmik məşqlər, qrupda sinxron ifa, lider və müşayiət funksiyalarının dəyişməsi kimi fəaliyyətlər dərsin əsasını təşkil edir. Eyni zamanda tələbələr ritm və musiqi ifadəsi arasında əlaqələri praktiki şəkildə mənimsəyir.* | 6 |
| 14 | ***a) Rejissorla iş***<br>*Səhnə sənətləri və musiqi ifaçılığı üzrə tələbələrin, xüsusilə vokal və muğam ifaçılarının, peşəkar səhnə təqdimatında rejissorlarla necə əməkdaşlıq etməli olduqlarını öyrədən praktik və nəzəri xarakterli fəndir. İfaçı səhnə davranışını, jest-mimika, plastika və emosional təqdimatını rejissor rəhbərliyi ilə inkişaf etdirir. Səhnə quruluşu, dramaturji yanaşma və tamaşaçı ilə vizual əlaqə yaratmaq bacarıqlarını formalaşdırır. Musiqi əsərinin və ya muğamın səhnə formasında rejissorla birgə təqdim olunmasına üzərində hazırlıq işi görülür. Səhnədə obraz qurmaq və rol bölgüsü, ifadəli çıxış texnikası, səhnə hərəkətləri və vizual dinamikaya uyğunlaşması nümayiş etdirilir. Səhnə məşqləri zamanı rejissorun təlimatlarını anlama və tətbiq etmə üsulları öyrənilir. Solo konsert, muğam tamaşaları, musiqili teatr layihələri, televiziya və səhnə çəkilişləri, yaradıcılıq imtahanları və festivallar iştirak bacarığını formalaşır.*<br><br>**b) İncəsənət tarixi**<br>*İncəsənət tarixi fənni qədim dövrlərdən müasir dövrədək incəsənət sahələrinin (rəssamlıq, memarlıq, musiqi, heykəltəraşlıq və s.) inkişaf mərhələlərini, üslub və cərəyanlarını, mühüm sənətkarların yaradıcılığını öyrədir. Fənn həm də mədəniyyət tarixini dərindən başa düşmək və sənətə elmi yanaşma formalaşdırmaq məqsədi* | 6 |

| | | |
|---|---|---|
| | *daşıyır. Dünya və Azərbaycan incəsənət tarixinin əsas mərhələlərini, üslublarını və sənətkarlarını öyrətmək, həmçinin sənət hadisələrini tarixi, estetik və ictimai kontekstdə qiymətləndirmə bacarığı aşılayır.* | |
| 15 | **Elmi-pedaqoji təcrübə**<br>*Elmi mövzu üzrə araşdırma aparmaq və nəticələrini təqdim etmək bacarığı inkişaf etdirir. Pedaqoji və elmi-tədqiqat bacarıqlarını formalaşdırmaq məqsədi daşıyır. Təcrübə müddətində ali təhsil müəssisələrində dərs prosesini müşahidə edir, dərs aparır, metodiki materiallar hazırlayır və eyni zamanda elmi istiqamətdə araşdırma işləri yerinə yetirirlər. Müəllimlik peşəsinə hazırlığı, pedaqoji ünsiyyət bacarığı, dərs planlaşdırması və elmi tədqiqat aparmaq qabiliyyəti inkişaf etdirilir. Fənn sillabusunun və tədris planlarının təhlili, mühazirə və seminar dərslərinin hazırlanması və təşkili, təlim və tərbiyə prosesinin müşahidəsi öyrənilir. İşləmə və biliklərin qiymətləndirilməsi üsulları mənimsənilir. Elmi məqalə, referat və tədqiqat işlərinin hazırlanması, ixtisas fənləri üzrə metodiki materialların tərtibi, təcrübə hesabatının hazırlanması və müdafiəsi və müstəqil dərs aparmaq və metodik material hazırlamaq bacarığı qazanılır.* | *6* |
| **CƏMİ** | | **90** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək

məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

Vokal sənəti ixtisası üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

- İxtisas və duet məşqləri üçün müvafiq alət və havalandırma sistemi ilə təchiz edilmiş sinif otaqları;
- Akustik baxımdan təkmilləşdirilmiş konsert salonu, otaqlar və kamera musiqisi zalı;
- Güzgülü otaqlar;
- Audiovizual texnologiyalarla təchiz olunmuş multimedia avadanlıqları (ifa analizləri, tədris təqdimatları və s. üçün);
- Musiqi texnologiyaları laboratoriyası (ifa yazıları, redaktə və interpretasiya araşdırmaları üçün müvafiq proqram təminatı ilə);
- Konsert, imtahan və məşq məqsədli kiçik səhnə və auditoriyalar;
- Müxtəlif janrlarda müşayiət edə biləcək peşəkar konsertmeyster heyəti;
- Vokal ifaçılıq üçün musiqi notları, aranjimanlar və partituraların toplusu.
- Məşhur ifaçıların video və audio arxivlərini əhatə edən multimedia ləvazimatları;
- Nəfəs texnikası, diafraqmanın idarə edilməsi və vokal sağlamlığını qorumaq üçün bədən hazırlığı və səs gigiyenası üzrə resurslar (səs laborotoriyası).

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Vokal sənəti ixtisası üzrə magistratura təhsili almış mütəxəssis kamera və ya opera müğənnisi, solo ifaçı, vokal ansamblın (muğam üçlüyü), xorun üzvü, müxtəlif tərkibli orkestrlərin solisti; Ali musiqi təhsil müəssisələrində pedaqoq, bədii rəhbər,; filarmoniyalar, teatr, opera, musiqi kollektivlərində solist, bədii rəhbər; konsert təşkilatlarında solist, ansambl üzvü; kapella, qarışıq xor kollektivləri və s. xor artisti; teatrlarda – musiqili teatr, opera və balet teatrlarında solist; media və yaradıcı sənayelər üzrə (televiziya, radio və film sahəsində) musiqi tərtibatçısı, redaktor, layihə rəhbəri; müsabiqə və festivalların təşkilatçısı; Müdafiə Nazirliyini və digər qurumların tərkibindəki ansambllarda solist işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

***Xanəndə sənəti ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Xanəndəlik sənətinin tarixi, nəzəriyyəsi və metodikası üzrə nəzəri biliklərə yiyələnərək, ifaçılığın əsas prinsiplərini biləcək. Azərbaycan və dünya musiqi mədəniyyətinə, o cümlədən muğam ifaçılığına dair geniş nəzəri biliklərə nail olacaq. Vokal sənəti üçün klassik dövrdən müasir dövrə qədər olan geniş repertuarı dərindən biləcək. |
| PTN 2 Xanəndəlik sənətinin müasir problemləri ilə bağlı geniş miqyaslı təhlillər, elmi-nəzəri araşdırmalar aparmağı bacaracaq. Vokal texnikasını emosional ifadə vasitəsi kimi tətbiq etməyi bacaracaq. |
| PTN 3. Solo və orkestrlə müxtəlif dövrlərə və üslublara aid musiqi əsərlərini texniki və bədii cəhətdən yüksək səviyyədə ifa etməyi bacaracaq. Konsert proqramlarını və yaradıcılıq layihələrini hazırlamaq, təşkil və icra etməyi bacaracaq. Vokal musiqisinin müxtəlif janrlarından, muğam dəstgahlarından, təsnif və xalq mahnılarından, müxtəlif üslub və təmayüllərə aid olan bəstəkar əsərlərindən ibarət geniş və rəngarəng ifaçılıq repertuarı hazırlamağı bacaracaq. |
| PTN 4. Musiqi nəzəriyyəsi üzrə biliklər əldə edərək, musiqi əsərlərinin təhlili və interpretasiyasını bacaracaq. Xanəndəlik üzrə əldə etdiyi vərdişləri muğam operalarının təfsir və təbliğində istifadə etməyi bacaracaq. KİV- lərdə vokal yönümlü proqramları tərtib və təqdim etməyi bacaracaq. |
| PTN 5. Muğam və xalq musiqi nümunələrinin ideya və məzmununu dərk edəcək və onları düzgün təqdim etməyi bacaracaq. Qarşıya qoyulan ifaçılıq vəzifələrini düzgün müəyyənləşdirmək, onları həll etmək üçün müvafiq metodları seçmək və tətbiq etmək bacarığına malik olacaq. |
| PTN 6. Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Xanəndəlik sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| PTN 7. Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskusiyalarda peşəkar şəkildə danışmaq və nəşr etikasına malik olacaq. |
| PTN 8. Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirəcək. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olacaq və tətbiq edə biləcək. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |

| |
|---|
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| **Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2 - Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3 - Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4 - Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5 - "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6 - Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| **Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |

| |
|---|
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| İxtisas (Muğam ifaçılığı) 1 fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Azərbaycan muğamlarının əsas lad-strukturlarını və formalarını fərqləndirərək ifa zamanı düzgün tətbiq edə biləcək. |
| FTN 2 - Muğam ifaçılığında vokal texnikalara (nəfəslə idarəetmə) düzgün yiyələnərək səhnədə sərbəst ifa nümayiş etdirə biləcək. |
| FTN 3 - Seçilmiş muğamın tarixi-mədəni əhəmiyyətini izah edə və bu bilgiləri ifa zamanı tətbiq edə biləcək. |

| İxtisas (Muğam ifaçılığı) 2 fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Muğamın lad-intonasiya sistemi və struktur xüsusiyyətlərini elmi-nəzəri əsaslarla təhlil edəcək və ifa prosesində tətbiq edəcək. |
| FTN 2 - Rast, Şur, Segah, Çahargah və digər əsas muğamların şöbə və guşələrini yüksək texniki və bədii səviyyədə ifa edəcək. |
| FTN 3 - Muğam ifaçılığında improvizasiya və interpretasiya bacarıqlarını inkişaf etdirərək fərdi yaradıcılıq üslubunu nümayiş etdirəcək. |
| FTN 4 - Muğam ifaçılığının klassik ənənələrini və məktəblərini müqayisəli şəkildə qiymətləndirəcək və onların ifa xüsusiyyətlərini praktiki tətbiq edəcək. |
| FTN 5 - Səhnə mədəniyyəti, ansambl və müşayiət ilə qarşılıqlı ifa bacarıqlarını peşəkar səviyyədə nümayiş etdirəcək. |
| FTN 6 - Muğam repertuarının seçimi, hazırlanması və təqdimatı üzrə müstəqil yaradıcılıq qərarları qəbul edərək konsert və akademik çıxış üçün proqram hazırlayacaq. |

| Vokal sənətinin müasir istiqamətləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Müasir vokal texnikalarını mənimsəyərək ifaçılıq bacarıqlarını inkişaf etdirərək, musiqi janrlarına uyğun səsləndirmə üsullarını tətbiq edə biləcək. |
| FTN 2 - Müasir vokal tərzlərini, performans üslublarını və şəhnə davranışlarını analiz edib mənimsəyəcək. |
| FTN 3 - İfaçılıqda yeni texnologiyalardan və audio efektlərdən istifadə edərək vokal səsləndirmə keyfiyyətini artıracaq. |
| FTN 4 - Müasir musiqi janrlarına uyğun vokal repertuarı seçəcək və ifa etmək qabiliyyətini inkişaf etdirəcək. |
| FTN 5 - Vokal ifaçılığında improvizasiya və yaradıcılıq bacarıqlarını təkmilləşdirərək fərdi və qrup şəklində səhnə performanslarını həyata keçirəcək. |

| Yaradıcılıq işi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Yaradıcılıq işinin əsas məqsədi fərdi bacarıq və təxəyyülünü inkişaf etdirəcək. |
| FTN 2 - Fənn, yeni ideyaların ortaya çıxmasını və onları həyata keçirmə qabiliyyətini gücləndirəcək. |

| |
|---|
| FTN 3 - Yaradıcılıq işində mövcud biliklərdən fərqli yanaşmalarla istifadə edəcək. |
| FTN 4 - Praktiki məşğələlər tələbələrin innovativ düşüncəsini stimullaşdıracaq və yaradıcılıq potensialını artıracaq. |
| FTN 5 - Yaradıcılıq işinin tədrisi sənət və intellektual fəaliyyətin sintezini təmin edəcək. |

| Qaval ifaçılığının tədrisi metodikası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Qaval ifaçılığının tədrisi zamanı texniki bacarıqların düzgün formalaşdıracaq. |
| FTN 2 - Fənn tələbələrə ritm və melodiyanın sinxronizasiyasını öyrətməyi hədəfləyəcək. |
| FTN 3 - Metodik yanaşma ifaçılıqda nəfəs, barmaq və əllərin koordinasiyasını inkişaf etdirməyə əsaslanacaq. |
| FTN 4 - Tədris prosesində praktiki məşğələlər vasitəsilə musiqi duyumu və improvizasiya qabiliyyəti artırılacaq. |
| FTN 5 - Qaval ifaçılığı fənni ənənəvi və müasir üsulları birləşdirərək tələbələrin ifa tərzini zənginləşdirəcək. |

| Muğamın poetik əsasları (muğamda əruz) fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Fənn müğamın poetik strukturunu və eruzun musiqidə ifadə tərzini dərindən öyrənməyi təmin edəcək. |
| FTN 2 - Müğamda əruzun rolu və onun poetik elementlərlə vəhdəti musiqi hissini zənginləşdirəcək. |
| FTN 3 - Tədris prosesində eruzun ritmik və poetik xüsusiyyətləri nümunələrlə izah olunur və praktik tətbiq ediləcək. |
| FTN 4 - Fənn müğamın emosional və bədii ifadəsinin əsasını təşkil edən eruzun düzgün interpretasiyasına yönləndirəcək. |
| FTN 5 - Muğamın poetik əsasları fənni şagirdlərə ənənəvi musiqi əsərlərində ritm və sözün harmoniyasını anlamağı öyrədəcək. |

| Ansambl fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ansambl fənni musiqiçilərin birgə ifa bacarıqlarını artırmaq məqsədi daşıyacaq. |
| FTN 2 - Bu fənn kollektiv yaradıcılıq və musiqi ahənginin formalaşmasına xidmət edəcək. |
| FTN 3 - Ansambl dərslərində müxtəlif musiqi janrlarında birlikdə çıxış etmək bacarığı inkişaf etdiriləcək. |
| FTN 4 - Ansamblda əməkdaşlıq və qarşılıqlı dinləmə qabiliyyətlərini təkmilləşdiriləcək. |
| FTN 5 - Fənn musiqi ifasında ritm, ton və dinamikanın koordinasiyasını əhatə ediləcək. |

| Xanəndəlikdə muğam müşayiəti fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Bu fənn xanəndənin muğam ifaçılığında düzgün texnika və ifadə bacarıqlarını inkişaf etdirməyə yönələcək. |
| FTN 2 Muğam muəyyəti dərslərində muğamın strukturu, ritm və melodik xüsusiyyətlərini mənimsəyəcək. |
| FTN 3 Fənn muğamın tarixi və ifa tərzlərinin dərindən öyrənilməsini təmin edəcək. |

| | |
|---|
| FTN 4 Xanəndəlikdə muğam muəyyəti ifa zamanı emosional dərinliyi və ifa ustalığını artırmaq məqsədi daşıyacaq. |
| FTN 5 Bu fənn vasitəsilə muğamın müxtəlif növlərinin xarakteristik xüsusiyyətlərini mənimsəyəcək və praktiki tətbiq edəcək. |

| Səhnə plastikası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Bu fənn səhnə hərəkətlərinin ifadəli və estetik şəkildə ifasını öyrədəcək. |
| FTN 2 - Səhnə plastikasında bədən dilinin və jestlərin düzgün istifadəsi vurğulanacaq. |
| FTN 3 - Fənn teatr və performans zamanı aktyorların fiziki ifadə qabiliyyətlərini inkişaf etdirməyə yönələcək. |
| FTN 4 - Səhnədə bədənin harmonik və ritmik hərəkətlərini mənimsəyəcək. |
| FTN 5 - Bu fənn aktyorun səhnə performansında emosiyaları bədən vasitəsilə çatdırma qabiliyyətini artıracaq. |

| Ritmika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ritmika fənni musiqi ilə bədənin uyğunluğunu öyrədəcək və hərəkət harmoniyasını inkişaf etdirəcək. |
| FTN 2 - Bu fənn vasitəsilə ritm duyumu və koordinasiya qabiliyyəti təkmilləşdiriləcək. |
| FTN 3 - Ritmika dərslərində bədən ritm və tempi musiqi ilə sinxronlaşdırma bacarığı formalaşacaq. |
| FTN 4 - Fənn uşaqlarda və gənclərdə məkan qavrayışını və motor bacarıqlarını inkişaf etdirməyə kömək edəcək. |
| FTN 5 - Ritmika təlimi musiqi və hərəkətin sintezini təmin edərək yaradıcılığı artıracaq. |

| Səhnə hərəkətinin plastik həlli fənn üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Səhnə hərəkətinin plastik həlli fənni aktyorların bədən ifadəsini və jestlərini təkmilləşdirməyə yönələcək |
| FTN 2 - Bu fənn vasitəsilə səhnədə emosiyaların bədən dili ilə effektiv çatdırılması bacarığı inkişaf etdiriləcək. |
| FTN 3 - Fənn səhnədə hərəkət və plastikanın uyğunluğunu təmin etməyi öyrədib, aktyorun obraz yaratmasına kömək edəcək. |
| FTN 4 - Plastik hərəkət texnikaları səhnə performansını daha canlı və inandırıcı edəcək. |
| FTN 5 - Səhnə hərəkətinin plastik həlli aktyorun məkanla əlaqəsini gücləndirərək tamaşaçı təsirini artıracaq. |

| Ritmika və ansambl uyğunluğu fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ritmika və ansambl ifaçılığında musiqi hissi və zamanlama bacarıqlarını inkişaf etdirib, kollektiv ifada ahəngdar ritm uyğunluğu yaradacaq. |
| FTN 2 - Ansambl və ritmika əsasında düzgün koordinasiya və hərəkət uyğunluğu təmin etməklə səhnə performansının keyfiyyətini artıracaq. |
| FTN 3 - Müxtəlif musiqi növləri və ritm nümunələri ilə işləyərək ansambl üzvləri arasında qarşılıqlı anlaşma və harmoniyanı gücləndirəcək. |

| |
|---|
| FTN 4 - Ritmika və ansambl uyğunluğu sayəsində musiqi və hərəkət arasında əlaqəni dərk etmək və bunu ifada tətbiq etmək qabiliyyəti formalaşacaq. |
| FTN 5 - Fənn çərçivəsində kollektiv işə motivasiya artırılıb, əməkdaşlıq və qarşılıqlı dəstək duyğusu inkişaf etdiriləcək. |

| **Rejissorla iş fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Səhnə əsərinin rejissorluq prinsiplərini anlayacaq və tətbiq edib, tamaşanın konsepsiyasını formalaşdırmaq bacarığı qazanacaq. |
| FTN 2 - Rejissorun sənət dili və kommunikasiya üsullarını mənimsəyərək aktyorlar və texniki heyətlə effektiv əməkdaşlıq qurulacaq. |
| FTN 3 - Səhnə hərəkətləri və dekor elementlərinin yaradılmasında rejissorun idarəetmə qabiliyyətini inkişaf etdirib, layihəni kompleks şəkildə idarə etməyi öyrənəcək. |
| FTN 4 - Tamaşanın rejissorluq prosesində problem həll etmə bacarıqları formalaşıb, yaradıcı ideyaların reallaşmasına dəstək göstəriləcək. |
| FTN 5 - Rejissorla iş zamanı zaman idarəetməsi və səhnə təhlili bacarıqları inkişaf edib, tamaşanın uğurlu icrasına töhfə veriləcək. |

| **İncəsənət tarixi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Müxtəlif dövrlərin və mədəniyyətlərin incəsənət üslublarını və əsas xüsusiyyətlərini tanıyacaq və təhlil ediləcək. |
| FTN 2 - İncəsənətin tarixi inkişaf prosesini başa düşərək, sənət əsərlərinin yaranma səbəbləri və sosial-mədəni kontekstini izah edə biləcək. |
| FTN 3 - Fərqli mədəniyyətlərin incəsənət nümunələrini müqayisəli şəkildə araşdıraraq, onların bənzərlik və fərqliliklərini müəyyən ediləcək. |
| FTN 4 - İncəsənət tarixi sahəsində mənbə və arxiv materiallarından istifadə etmə bacarığı formalaşacaq. |
| FTN 5 - İncəsənət əsərlərinin estetik və tarixi dəyərini qiymətləndirərək, onların müasir incəsənətə təsirini izah edə biləcək. |

| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 - Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |

| |
|---|
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

**Əlavə 2**

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 |
| Akademik yazı və etika | | | | | | | x | |
| Layihələrin idarə olunması | | | | | | | | x |
| Ali məktəb pedaqogikası və psixologiyası | | | | | | x | | |
| İxtisas (muğam ifaçılığı) | | | x | | | | | |
| Vokal sənətinin müasir istiqamətləri | x | | | | | | | |
| Yaradıcılıq işi | | | | x | | | | |
| Qaval ifaçılığının tədrisi metodikası | | x | | | | | | |
| Muğamın poetik əsasları (muğamda əruz) | | | | x | | | | |
| Ansambl | | | x | | | | | |
| Xanəndəlikdə muğam müşayiəti | | | | | x | | | |
| a) Səhnə plastikası | | | x | | | | | |
| b) Ritmika | | | | x | | | | |
| a) Səhnə hərəkətinin plastik həlli | | | x | | | | | |
| b) Ritmika və ansambl uyğunluğu | | | | x | | | | |
| a) Rejissorla iş: | | | | x | | | | |
| b) İncəsənət tarixi | | | | | x | | | |
| Elmi-pedaqoji təcrübə: | | x | | | | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Muğam sənəti kafedrasının müdiri:** ____________ **Teyyub Aslanov**

**ADMİU-nun Musiqi sənəti fakültəsinin dekanı:** ____________ **İradə Xəlilova**